AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
FOLKLOR İNSTİTUTU

*Əlyazması hüququnda*

**SEVİNC AŞUR qızı QASIMOVA**

# AZƏRBAYCANDA NOVRUZ ƏNƏNƏLƏRİ VƏ İNANCLARI

**5719.01 – Folklorşünaslıq**

**Filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyanın**

**A V T O R E F E R A T I**

**BAKI-2015**

**Dissertasiya Azərbaycan Milli Elmlər Akademiyası Folklor İnstitutunun "Miflogiya" şöbəsində yerinə yetirilmişdir.**

**Elmi rəhbər:** **Seyfəddin Gülverdi oğlu Rzayev**
Filologiya üzrə elmlər doktoru, dosent

**Rəsmi opponentlər:** **Maarifə Hüseyn qızı Hacıyeva**
Filologiya üzrə elmlər doktoru, professor
**Qalib Əmirağa oğlu Sayılov**
Filologiya üzrə fəlsəfə doktoru, dosent

**Aparıcı müəssisə:** Bakı Dövlət Universitetinin "Azərbaycan şifahi xalq ədəbiyyatı" kafedrası

Müdafiə____ ________ 2015-ci il saat______ -da AMEA Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

**Ünvan:** AZ1001, Bakı şəhəri, 8-ci Kiçik Qala döngəsi,31

Dissertasiya ilə AMEA Mərkəzi Elmi Kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferat "__" ______ 2015-ci ildə göndərilmişdir.

**Dissertasiya Şurasının elmi katibi,**
**filologiya üzrə fəlsəfə doktoru,**
**dosent:** Afaq Xürrəm qızı Ramazanova

## TƏDQİQATIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı**. Azərbaycan milli-mənəvi mədəniyyətinin ən qədim və zəngin tarixə malik, eyni zamanda ən aktual abidələrindən biri və bəlkə də, birincisi Novruz bayramıdır. Bu bayramın həm zaman, həm yaşarılıq baxımından birinci hesab olunması təsadüfi deyildir. Xalqımızın mədəniyyət tarixində nə qədər böyük abidələr olsa da, onlar bütün hallarda tarixin müəyyən epoxaları ilə bağlıdır. Lakin Novruz bayramının həm qədimlik, həm də müasirlik baxımından milli mədəniyyətimizdə xüsusi və əlahiddə yeri vardır. Birincisi, Novruz bayramı xalqımızın tarixinin ən dərin qatları ilə bağlıdır. Bu bayramın tarixi o qədər qədimdir ki, hətta onun dəqiq yaşını müəyyənləşdirmək mümkün deyildir. İkincisi, Azərbaycan mədəniyyət tarixində Novruz bayramı kimi ikinci elə bir mədəniyyət hadisəsi tapmaq mümkün deyildir ki, o, tarixin ən qədim dövrlərindən bu günə kimi bir an belə olsun xalqımızın həyatından ayrı düşməsin. Bu – Novruz bayramıdır. O, həmişə – tarixin bütün dövrərində, bütün epoxalarında xalqımızla birgə olmuş, milli mədəniyyətimizin, milli mənəviyyat və həyatımızın ayrılmaz parçasına çevrilmişdir. Novruz bayramına heç vaxt sönməyən, tükənməyən elmi marağın da əsasında elə bu amil durur. Ona xalqımızın hər zaman böyük ehtiyacı olmuşdur. Sovet dövründə vətənpərvər alimlərimiz bu bayramı "yaz bayramı", "təbiətin oyanışı bayramı" və s. adlar altında yaşatmağa çalışırdılar ki, onu ölməyə qoymasınlar. Çünki Novruz milli varlığımızın simvolu, milli inkişafımızın ulu və möhtəşəm qaynağıdır. O, bu əsas vəzifəsini bu gün də uğurla yerinə yetirir. Müasir Azərbaycan dövlətinin milli quruculuq siyasətində muğam, xalça və aşıq sənəti ilə yanaşı, mühüm rol oynayan Novruz bayramı artıq bütün dünyada Azərbaycan xalqının mühüm milli simvollarından birinə çevrilmişdir. Bu da öz növbəsində ona olan elmi marağı daha da gücləndirir. Bu cəhətdən "Azərbaycanda Novruz ənənələri və inancları" mövzusu xüsusi elmi aktuallıq kəsb edir. Novruz bayramının milli mədəniyyətimizdəki rolunun ildən-ilə daha da güclənməsi onu yaşadan, ölməyə qoymayan ənənələri və onların əsasında duran müqəddəs dəyərləri – inanc sistemini dərindən öyrənməyi xüsusi elmi vəzifə kimi qarşıya qoyur.

**Dissertasiyanın obyekti və predmeti.** Tədqiqatın *obyektində* milli mədəniyyətimizin ən qədim və zəngin hadisəsi olan Novruz bayramı durur. Novruz bayramı bir kompleks kimi milli mədəniyyətimizin bir çox qatlarını – mifləri, arxaik mərasimləri, oyun və tamaşaları, adət-ənənələri, mahnı və nəğmələri, epik, lirik və dramatik folklorun bayramla bağlı bir çox janrlarını (lətifələri, alqış-duaları, mərasim şeirlərini, tapmacaları və s.), sosial münasibətləri (küsülülərin barışması və s.), ideoloji görüşləri (müxtəlif dövrlərin

siyasi və dini sistemlərinin izlərini), mərasimi davranış formalarını (bayramlaşma, payapardı və s.), zəngin mətbəx-məişət ənənələrini özündə qovuşdurur. Bu bayramın Azərbaycan mədəniyyətinin nə qədər zəngin qatlarını, bu qatlara məxsus elementləri özündə qovuşdurub yaşatdığını əhatə etmək belə çətindir. Bu sadalananların hər biri ayrı-ayrılıqda müstəqil tədqiqatların mövzusudur. Bu cəhətdən bizim apardığımız araşdırmanın *predmetini* Azərbaycanda keçirilən Novruz bayramına məxsus ənənə və inancların öyrənilməsi təşkil edir.

**İşdə əsas məqsəd və vəzifələr**. Tədqiqatın aparılmasında başlıca məqsəd Azərbaycanda Novruz bayramı ilə bağlı ənənə və inancların öyrənilməsidir. Bu məqsəd aşağıdakı vəzifələri əhatə edir:

- Novruz bayramı ilə bağlı ilaxır çərşənbə ənənələrinin tədqiqi;
- Novruz bayramı ilə bağlı tamaşa ənənələrinin tədqiqi;
- Novruz bayramı ilə bağlı oyun ənənələrinin tədqiqi;
- Novruz bayramı ilə bağlı magik ənənələrin (falların) tədqiqi;
- Novruz bayramı ilə bağlı mətbəx-məişət ənənələrinin tədqiqi;
- Novruz bayramı ilə bağlı inanc ənənələrinin tədqiqi;
- Novruz bayramı ilə bağlı əsas kultların (od/atəş, su, bitki, torpaq və s.) tədqiqi və s.

**Mövzunun öyrənilmə dərəcəsi**. Novruz bayramı ilə bağlı çoxlu tədqiqatlar aparılmışdır. Bu tədqiqatlar mövzu baxımından çox məsələləri əhatə edir. Çünki bu bayram bir kompleksdir və özündə mərasimlərdən tutmuş poetik ənənələrə, mətbəx məişət məsələlərinə qədər saysız dərəcədə zəngin ənənələri birləşdirir. Tədqiqatlarda bu məsələlər müxtəlif yönlərdən işıqlandırılmışdır. Eyni məsələlərə müxtəlif dövrlərdə fərqli münasibət bəslənmişdir. Sovet dövründə bu bayramın milli mədəniyyətimizdəki yeri və rolunu dərindən dərk edən tədqiqatçılar əsasən onu müdafiə edən yazılar yazıblar. Çünki sovet ideoloqları Novruz bayramına sırf dini bayram donu geydirib, onu milli mədəniyyətimizdən silməyə çalışırdılar. Odur ki, millətsevər alimlər Novruz bayramının dini bir bayram olmadığını, dini ənənələrin bu bayrama sonradan qarışdığını sübuta yetirməyə çalışmaqla, onu xilas etməyə, yaşatmağa, hücumlardan, repressiyalardan qorumağa çalışırdılar. Bundan irəli gəlməklə Novruz bayramı həmin tədqiqatlarda, əsasən, yaz bayramı, təbiət bayramı kimi təqdim olunur.

Novruz bayramı haqqında daha dolğun tədqiqatlar müstəqillikdən sonra aparılmağa başlanmışdır. Bu tədqiqatlarda Novruz bayramı ilə bağlı bütün məsələlər əhatəli şəkildə qoyularaq həllinə çalışılmışdır. Ümumiyyətlə, Novruzla bağlı araşdırmalarda dissertasiyanın predmetini təşkil edən məsələlərə də

toxunulmuşdur. Lakin dissertasiyadakı tədqiqatı digər araşdırmalardan fərqləndirən başlıca cəhət ondan ibarətdir ki, bu tədqiqatda Azərbaycan Novruzuna məxsus ənənələr inanc əsaslarına bağlı şəkildə sistemləşdirilmişdir. Yəni dissertasiyada Novruz ənənələri onların inanc qaynaqları, inanc kökləri ilə birgə tədqiq olunmuşdur. Bu zaman mövzu ilə bağlı mövcud tədqiqatlardan yetərincə istifadə olunmağa çalışılmışdır.

**Dissertasiyanın əsas elmi yenilikləri**. Tədqiqatda bir sıra elmi yeniliklər əldə edilmışdır. Onları aşağıdakı şəkildə ümumiləşdirmək olar:

- Novruz bayramının milli mədəniyyətdəki yeri və rolu araşdırılaraq onun mənəvi ənənə kimi mahiyyəti üzə çıxarılmışdır;
- bayramın milli dövlətçilik ənənələrindəki yeri və rolu müəyyənləşdirilmişdir;
- İlaxır çərşənbə ənənələri ilə bağlı bir sıra mübahisəli məsələlərə aydınlıq gətirilmişdir;
- Novruz sosial birlik və paylaşma bayramı kimi səciyyələndirilmişdir;
- Novruz tamaşa ənənələrinin əsas məzmun və mahiyyəti müəyyənləşdirilmişdir;
- Novruz oyun ənənələrinin əsas məzmun və mahiyyəti müəyyənləşdirilmişdir.
- Novruz mətbəx ənənələrinin mərasimi mahiyyəti və inanc əsasları müəyyənləşdirilmişdir;
- Novruz inanclarında qeyri-adi zaman nöqtəsi müəyyənləşdirilmiş və onun əsas mahiyyəti üzə çıxarılmışdır;
- Novruz inanclarında od kultunun rolu və mahiyyəti müəyyənləşdirilmişdir;
- Novruz inanclarında su kultunun rolu və mahiyyəti müəyyənləşdirilmişdir;
- Novruz inanclarında bitki kultunun rolu və mahiyyəti müəyyənləşdirilmişdir;
- Novruz inanclarında torpaq kultunun rolu və mahiyyəti müəyyənləşdirilmişdir;
- Novruz fallarının inanc əsasları üzə çıxarılmışdır və s.

**Tədqiqatın nəzəri-metodoloji bazası**. Araşdırmanın əsas nəzəri-metodoloji bazasını Azərbaycan alimlərinin tədqiqatları təşkil edir. Bu, ondan irəli gəlir ki, Azərbaycan xalqına məxsus Novruz bayramı ənənə və inancları daha obyektiv və daha ətraflı şəkildə məhz Azərbaycan alimlərinin tədqiqatlarında əhatə olunmuşdur. Azərbaycan Novruzu ilə bağlı tədqiqat aparmış xarici ölkə alimləri (eləcə də bəzi Azərbaycan alimləri) xalqımıza

məxsus bu bayramın tarixini, mənşəyini yad köklərə, yad mənşələrə bağlamış, onun Azərbaycan mədəniyyətinə kənardan gəlmə olduğunu sübuta yetirmək istəmişlər. Halbuki Şərqdə geniş yayılmış, çox böyük ərazidə keçirilən Novruz bayramının hamıya aid olan xüsusiyyətləri ilə bərabər, elə cəhətləri vardır ki, ona yalnız türk xalqlarının, o cümlədən Azərbaycan xalqının keçirdiyi Novruz bayramında rast gəlmək mümkündür. Bu cəhətlər xüsusilə qədim inanclarla, mərasimi görüşlərlə bağlıdır. Xarici ölkə alimləri bu faktlara bəzən göz yumub, onlara etina etmədiyi halda, Azərbaycan alimləri bu kimi faktlara əsaslanıb Azərbaycan Novruzunun özünəməxsus cəhətlərini aşkarlamaq istiqamətində böyük işlər görmüşlər. Biz də tədqiqatda Azərbaycan alimlərinin araşdırmalarını əsas nəzəri-metodoloji baza kimi götürməyi məqsədəuyğun bilirik.

Novruz bayramı çox qədim köklərə malik tarixi bayramdır. Onu tədqiq edərkən tarixi cəhətdən yanaşma həmişə əsas götürülməlidir. Tarixi yanaşma eyni zamanda müqayisəli yanaşmanı da tələb edir. Çünki Novruz bayramı tarixən inkişaf edib təkmilləşmiş, onun şəklində, məzmununda dəyişikliklər baş vermişdir. Bunlar isə müqayisəli yanaşma tələb edir. Beləliklə, tədqiqatda metod kimi tarixi-müqayisəli yanaşma əsas götürülmüşdür.

**Dissertasiyanın nəzəri və praktiki əhəmiyyəti**. Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti vardır. Dissertasiyanın *nəzəri əhəmiyyəti* ilk növbədə onda ifadə olunur ki, burada Azərbaycan Novruzunun özünəməxsus ənənələri inanc əsasları ilə birgə tədqiq olunaraq sistemləşdirilmişdir. Bu sistemləşdirmənin nəticələri, yenilikləri, əldə olunan qənaətlər, ehtimal və fərziyyələrin bu mövzuda yazılacaq sonrakı tədqiqatlar üçün nəzəri əhəmiyyəti vardır.

Dissertasiyanın *praktiki əhəmiyyəti* ilk növbədə Novruz bayramının Azərbaycan mədəniyyətindəki rolunun və elmindəki yerinin get-gedə güclənməsi ilə şərtlənir. İndi elektron informasiya vasitələrində (radio və televiziyalarda, internetdə) Novruz mövzusu hər il vaxtaşırı əsas mövzuya çevrilmişdir. Bundan başqa ali məktəb dərsliklərində Novruz bayram kompleksi şifahi ədəbiyyatın, milli etnoqrafiyanın əsas mövzularından hesab olunur. Dissertasiyada aparılmış tədqiqat həm elektron informasiya vasitələrində, həm də ali məktəblərdə praktiki vəsait kimi istifadə oluna bilər.

**Tədqiqatın aprobasiyası**. Dissertasiya işi AMEA Folklor İnstitutunun Mifologiya şöbəsində hazırlamışdır. Tədqiqat nəticələri, əsas yenilikləri müəllifin Azərbaycanda və xarici ölkələrdə Azərbaycan Ali Attestasiya Komissiyasının norma və tələblərinə uyğun jurnallarda çap etdirdiyi məqalələrdə əks olunmuşdur.

**Dissertasiyanın quruluşu**: Tədqiqat giriş, üç fəsil, nəticə və istifadə olunmuş ədəbiyyatın siyahısından ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın birinci fəsli "**Novruz milli ənənə kimi**" adlanır. Xalqımızın həyatı və məişətində, milli düşüncəsində tarixin ən dərin, hətta bilinməz qatlarından başlanmaqla bu günə qədər mühüm yer tutan Novruz bayramı bütünlükdə mərasim hadisəsidir. Birinci fəslin "***Novruz bayramı milli-mənəvi ənənə kimi***" adlanan birinci yarımfəslində göstərilir ki, mədəniyyət tariximizdə Novruz bayramı kimi son dərəcə böyük, əbədiyaşar, tarixi və tarixi olduğu qədər də müasir bir abidə də var. Onun tarixi, mənşəyi həddindən artıq qədimdir. Novruz bayramı özünün ən ilkin mərhələsindən başlamış müasir dövrümüzə qədər müxtəlif məzmun və şəkildəyişmələrə uğramışdır. Bu dəyişmələrin əsas səbəbləri müxtəlif dövrlərin dini ideologiyaları olmuşdur. Novruzun təkcə Azərbaycanda deyil, ümumiyyətlə yayıldığı bütün regionlarda təmasda olduğu, qaynayıb-qarışdığı dinlər tarixinə nəzər saldıqda görürük ki, dünyanın xristianlıq, islam kimi nəhəng dinləri Novruz bayramına təsir edib, onun məzmun və formasında müəyyən izlər qoysa da, Novruz bir bayram kimi heç vaxt bu dinlərin içərisində əriyərək yox olmamışdır. S.Rzasoy qeyd edir ki, Novruz bayramı tarixinə görə ilkin mifoloji-kosmoqonik görüşlərlə bağlıdır. Mifoloji düşüncənin parçalanaraq tarixi düşüncəyə keçidi zamanı əski dinlərə transformasiya olunmuş, daha sonrakı inkişafında müxtəlif səmavi və qeyri-səmavi dinlər, dini-ideoloji görüşlərlə qovuşmuşdur. Bu baxımdan, Novruz bayramı aşağıdakı din və dini-mifoloji dünyagörüşlərini özündə birləşdirir:

1. Qədim türklərin *şamanizm* dünyagörüşü;
2. Qədim və erkən orta əsr türklərinin *tanrıçılıq* dini;
3. Qədim Azərbaycan və İran xalqlarının *zərdüştilik* dini;
4. *İslam* dini və onun müxtəlif təriqət və məzhəbləri;
5. Xristian türk xalqlarının simasında *xristianlıq* dini;
6. İudaist türk xalqlarının (əsasən tarixi xəzərlərin və onların çağdaş törəmələrinin) simasında *musəvilik – iudaizm* dini.
7. İki milyona yaxın buddist türklərin simasında *buddizm* dini və s.[1]

Novruz bayramı orta əsrlər mədəni-ideoloji düşüncə tarixinin ən nəhəng hadisəsi olan islam dini ilə təmas zamanı müəyyən dəyişikliklərə məruz qalsa da, aradan qalxmadı[2]. Meydana çıxan yeni dinlər qədim köklərə malik Novruzla

---

[1] Rzasoy S. Novruz bayramının konseptual-fəlsəfi əsasları / Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər, XXXI kitab. Bakı: Nurlan, 2009, s. 90

[2] Azərbaycan ədəbiyyatı tarixi. I cild. Bakı: Elm, 2004, s. 107

ziddiyyətə girsə də, bu bayram yaşamaqda davam etmişdir. Hər bir dini ideologiya əvvəlcə onu inkar etmiş, sonra sanki Novruzla barış içərisində yaşamışdır. Bunun əsas səbəbi Novruz bayramının milli-mənəvi dəyərlərə söykənməsi idi.

Birinci fəslin "***Novruz bayramı və milli dövlətçilik ənənələri***" adlanan ikinci yarımfəslində göstərilir ki, Novruz bayramının tarixi Azərbaycanın milli dövlətçilik ənənələri ilə həmişə sıx bağlı olmuşdur. Prof.A.İmanquliyevanın adlandırdığı kimi "Mərkəzi Asiyadan Balkanlara qədər uzanan böyük bir ərazidə məskunlaşan bütün türk xalqları tərəfindən sevinclə qarşılanan Yeni il – Novruz bayramının"[1] tarixinə nəzər salınarsa, onun milli dövlətçilik ənənələri ilə sıx bağlı olduğu üzə çıxar. Novruzun tarixi çox qədimdir. Tədqiqatçılar bu tarixi nə qədər dərinə aparırlarsa, Novruz bayramının tarixi sanki tükənmir. Hələ 1927-ci ildə Y.V.Çəmənzəminli yazırdı ki, bu günə qədər adət və ayinlərimiz tədqiq sahəsindən uzaqda qalmışdır. Az-çox Novruz haqqında fikir yürüdülmüşsə də, tarix nəzərə alınmamış və məsələ mücərrəd mülahizələr şəklində durub qalmışdır. Şərq müəlliflərinin bu barədə verdiyi məlumat qarışıqdır və çox zaman məsələyə sami etiqadları qarışdırdıqlarından tarixi həqiqət ortada itib gedir. Məsələn, "Bürhani-qate"nin: "Cənab haq aləmi və Adəmi ol gündə (Novruz günü) xəlq elədi" deməsi bizə Tövratı andırır. Halbuki, qədim Azərbaycan və İran Tövrat fəlsəfəsinə yabançıdır[2]. Y.V.Çəmənzəminlinin "Bürhani-qate" adlanan fars mənbəyinə əsasən verdiyi fikrindən məlum olur ki, pişdadiyan (pişdadilər) sülaləsindən olan məşhur Cəmşid şah "əqtabi-ərzi" (dünyanın qütbləri arasındakı əraziləri) gəzib Azərbaycana gəlir. Burada hündür bir yerdə şah taxtı qurdurur, əyninə şahlara məxsus geyim geyir, başına şah tacı qoyaraq həmin taxtda əyləşir. Sübh tezdən günəş qalxır və onun şüaları şahın tacına və taxtına düşərək ətrafı parlaq işığa qərq edir. Hamı sevinir və həmin gün bir "yovmi-mümtaz", yəni "seçilmiş, fərqli, məşhur bir gün" olduğuna görə onu Novruz adlandırıb, bundan sonra hər il böyük bayram, rəsmi dövlət bayramı kimi qeyd etməyə başlayırlar. Bu mərasimdə iki cəhəti mühüm hesab edirik. Bunun birincisi Novruz bayramının dövlətçilik ənənəsi ilə, ikincisi isə Azərbaycanla bağlanmasıdır. "Bürhani-qate"dəki rəvayətdə Novruz bayramının Cəmşidin taxta çıxması ilə bağlanması bu bayramın bilavasitə dövlətçilik

---

[1] İmanquliyeva A. Novruz Şərq ölkələrində / Azərbaycanda Novruz (toplu). Toplayanı, nəşrə hazırlayanı və elmi redaktoru Azad Nəbiyev. Bakı: Çıraq, 2012, s. 51-57

[2] Çəmənzəminli Y.V. Azərbaycanda zərdüşti adətləri / Y.V.Çəmənzəminli. Əsərləri. 3 cilddə, III cild. Məqalə, oçerk və xatirələr. Bakı: Elm, 1977, s. 83

bayramı olduğunun sübutudur. Yada salmaq olar ki, müxtəlif rəvayətlərdə Novruz bayramı dördüncü islam xəlifəsi Həzrət Əlinin də taxta çıxması ilə əlaqələndirilmişdir. Tədqiqatçı R.Allahverdiyev yazır ki, "bayramın keçdiyi mürəkkəb tarix yolu göstərir ki, müəyyən dövrlərdə Novruz mərasimi ilə müqəddəs sayılan şəxslərin əlaqələndirilməsi meylləri olmuşdur. Bu cür vəziyyətlərdə tarixdə böyük hörmət və ehtiram qazanmış şəxsiyyətlərin real tarixi simaları tədricən rəvayətləşdirilmiş (əfsanələşdirilmiş) cizgilərlə əvəzlənilmiş olur. Sonrakı dönəmdə İslamın təsiri ilə Novruz mərasiminin müsəlmanların müqəddəs şəxslərindən sayılan Həzrət Əlinin taxta çıxarılması, həmçinin, xəlifələrin taxta çıxarılması ilə əlaqələndirilməsi də bu cür əfsanələşdirilmənin nəticəsi kimi izah edilməlidir"[1] . Prof.C.Qasımov da yazır ki, bir çox mənbələrdə "Novruz"un "Adəmin yaradıldığı gün", "Nuhun gəmisinin torpağa oturduğu gün", "Türklərin Ergenekondan çıxdıqları gün", "Dünyada ilk hökmdar hesab edilən Kəyumərsin adı ilə bağlı gün", "Cəmşidin Azərbaycana səyahəti ilə bağlı gün", "Atəşpərəstiklikdən qalan bir bayram", "Yunus peyğəmbərin balığın qarnından çıxdığı gün", "Həzrəti Məhəmmədin peyğəmbərlik xələtini geydiyi gün", "İmam Əlinin xilafətə gəldiyi gün", "İmam Əlinin doğum günü", "Küsülülərin barışması üçün imam Əli tərəfindən elan edilən bayram", "İmam Əli ilə Fatimatü-Zəhranın evləndikləri gün" və sair göstərilir[2].

Mütəxəssislərin qənaətincə, Novruz bayramında miflə tarix yan-yana, iç-içədir. Prof. M.Qasımlı bu barədə yazır ki, Novruz bayramının tərkibi aşağıdaki iki qatdan ibarətdir:

a) təbiətin oyanmasını əks etdirə mifoloji qat;
b) müxtəlif tarixi dönəmlərin ovqatını ifadə və inikas edən siyasi-ideoloji qat.[3]

Novruz bayramı XX əsrə qədər Azərbaycanda böyük coşqu ilə qeyd edilmişdir. Hətta Şimali Azərbaycan Rusiya imperiyasının tərkibində olduğu XVIII-XIX yüzilliklərdə çar hakimiyyəti bayramı rəsmi dövlət səviyyəsində qeyd etməsə də, onun xalq tərəfindən keçirilməsinə heç bir maneçilik törətməmişdir. Məsələn, H.Sarabskinin "Köhnə Bakı" adlanan əsərində çar dönəmində Bakı

---

[1] Allahverdiyev R. Azərbaycan təqvim miflərinin semantikası: Fil. üzrə fəl. dok. ...dissertasiya. Bakı, 2011, s. 77

[2] Qasımov C. Novruz bayramı milli-mənəvi dəyərlərin repressiyası kontekstində / Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər, XXXI kitab. Bakı: Nurlan, 2009, s. 15

[3] Qasımlı M. Novruz mərasim kompleksinin tarixi-mifoloji anlamı / Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər. VIII kitab. Bakı: Səda, 1999, s. 56

şəhərində Novruz bayramının necə böyük coşqu ilə keçirilməsindən ətraflı bəhs olunur [1].

XX əsrin əvvəllərində rus imperiyasında baş verən dalbadal inqilablar nəticəsində çar hökuməti çökür və Şimali Azərbaycanda Azərbaycan Xalq Cümhuriyyəti (AXC) qurulur. AXC hökuməti Novruz bayramına da milli bayram kimi böyük əhəmiyyət vermişdir. Bunu AXC dövründə Novruz bayramının yüksək səviyyədə keçirilməsini təmin edən hüquqi sənəd də sübut edir. "Novruz bayramı münasibətilə hökumət məmurlarına müavinəti-nəqdiyyə verilməsi haqqında qanun" adlanan bu sənəd AXC parlamenti tərəfindən 1919-cu ilin martın 19-da qəbul edilmişdir. AXC hökuməti Novruz bayramının keçirilməsinə xüsusi önəm verərək, bu məqsədlə 1919-cu il fevralın 18-də bayram münasibətilə müavinət verilməsi barədə Parlamentə qanun layihəsi təqdim etmişdir. Sovetlər dönəmində Novruz bayramı kimi milliliyi yaşadan, dağılmağa qoymayan bayramlar bolşeviklər-rus ideoloqları tərəfindən nifrətlə kənara itələnmiş, hər cür repressiyalara uğradılmış, o cümlədən qanlı təqiblərə məruz qoyulmuşdur.

Novruz bayramını milli-mənəvi dəyərlərin sovet dövrü repressiyası kontekstində tədqiq etmiş C.Qasımov göstərir ki, Novruz bayramı 1920-ci illərin əvvəllərində dövlət tərəfindən milli bayram kimi qeyd edilirdi. Hətta Nəriman Nərimanovun təşəbbüsü ilə Azərbaycan İnqilab Komitəsi "1921-ci il martın 22-dək yol verilmiş fərariliyə görə əsgərlərə və hərbi qulluqçulara qarşı qaldırılmış işlərin xətm edilməsi haqqında" dekret qəbul etmişdi. Həmin dekretdə göstərilirdi ki, müsəlmanların Novruz bayramı ilə əlaqədar olaraq, Azərbaycan İnqilab Komitəsi cari il (1921-ci il nəzərdə tutulur – C.Q) martın 22-dək fərarilik etdiklərinə görə həbs edilib cəza çəkmə yerlərində saxlanılan bütün əsgərlərin və hərbi qulluqçuların istintaqı dayandırılsın və onlar təxirə salınmadan azad edilərək öz hərbi hissələrinə göndərilsin"[2].

Qeyd edək ki, Novruz bayramına qarşı sovet-bolşevik ideoloqlarının bütöv tarixləri boyunca apardığı mübarizə öz bəhrəsini vermədi. Bu bayramı Azərbaycan xalqının ailə-məişətindən, milli yaddaşından sıxışdırıb atmaq mümkün olmadı. Novruz bayramının da rəsmi şəkildə bərpasına, müvəqqəti də olsa, öz təsirini göstərdi. Bu işdə görkəmli partiya və dövlət katibi, yazıçı-

---

[1] Sarabski H. Köhnə Bakı. Bakı: Yazıçı, 1982, s.127

[2] Qasımov C. Novruz bayramı milli-mənəvi dəyərlərin repressiyası kontekstində / Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər, XXXI kitab. Bakı: Nurlan, 2009, s. 15

dramaturq, ictimai xadim Şıxəli Qurbanovun böyük rolu oldu: "Ş.Qurbanov 1967-ci ildə Novruz bayramının ümumxalq bayramı olmaqla dövlət səviyyəsində qeyd edilməsi təşəbbüsü ilə çıxış edir və öz ideyasını həyata keçirmək yolunda hər cür çətinliklərə qarşı mübarizədən geri çəkilmir. Düşünülmüş şəkildə tərtib olunmuş Novruz bayramı şənlikləri Azərbaycanın bütün bölgələrində, xüsusən Bakı şəhərində ümumxalq şənliyi səviyyəsinə qaldırıldı... Təbii olaraq, sonrakı illərdə sovet rejimi Novruz bayramının, eləcə də digər xalq ayin, mərasimlərinin qarşısına öz keçilməz sipərini çəkdi. Bununla belə, Şıxəli Qurbanovun təşəbbüsü, milli cəsarəti ilə 1967-ci ildə böyük təntənə ilə qeyd olunmuş Novruz bayramı ürəklərdə kövrək iz qoydu"[1].

Şimali Azərbaycanın öz müstəqilliyinə qovuşması ilə Novruz bayramı da mili əsarətdən xilas oldu. Əslində, Novruz milli müstəqilliyin bayramına çevrildi və bu işdə görkəmli dövlət xadimi, milli öndər Heydər Əliyevin çox böyük rolu oldu. Novruz bayramının milli-mənəvi dəyər kimi xalqımızın həyatında yerini çox gözəl bilən Heydər Əliyevin 1993-cü il tarixi sərəncamından sonra Novruz ölkədə ümummilli bayram kimi dövlət səviyyəsində qeyd edilməyə başladı.

Ulu öndər Heydər Əliyevin dövlətçilik kursunu böyük müvəffəqiyyətlə davam etdirən İlham Əliyev də Novruz bayramının milli dövlətçilik ənənələri ilə bağlılığına həmişə böyük əhəmiyyət vermişdir. Belə ki, "Azərbaycan xalq adət-ənənələrinin, mərasim və bayramlarının yaşadılması, milli ruhda zənginləşdirilməsi, onların, xüsusən gənc nəslin təlim-tərbiyəsində mühüm rol oynaması kimi vacib məsələlər də həmişə İlham Əliyevin diqqətindədir. Prezident İlham Əliyevin Azərbaycanın milli Novruz bayramı şənliklərində iştirak etməsi, xalqla bir olması müstəqil Azərbaycan Respublikası insanlarının birliyindən, sevincli günlərindən, parlaq sabahından soraq verir[2]. Novruz bayramının 2009-cu ilin 30 sentyabrında YUNESKO-nun dünya xalqlarının qorunan qeyri-maddi mədəni irsi siyahısına daxil edilməsi Azərbaycan dövlətinin bütün dünyada böyük uğuru oldu. Bu işdə Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın çox böyük rolu olmuşdur. Novruz bayramının Azərbaycan dövlətçilik ənənələrinin inkişafında ən böyük rolu Birləşmiş Millətlər Təşkilatı Baş Məclisinin 64-cü sessiyasında martın 21-nin bütün dünyada "Beynəlxalq Novruz günü" elan edilməsidir. Burada ən əlamətdar cəhət ondan ibarətdir ki, yer üzündə üç yüz milyondan çox insanın

---

[1] Novruz Bayramı Ensiklopediyası. Tərtib edənlər: Bəhlul Abdulla, Tofiq Babayev. Bakı: Şərq-Qərb, 2008, s. 128

[2] Yenə orada, s. 79

Novruz bayramını qeyd etməsinə baxmayaraq, bu qərar məhz Azərbaycan dövlətinin təşəbbüsü ilə baş tutmuşdur.

Dissertasiyanın ikinci fəsli **"Novruz bayramı ilə bağlı mərasim ənənələri"** adlanır. Novruz bayramının ənənələrini aşağıdakı kimi ümumiləşdirmək mümkündür: ilaxır çərşənbələrlə bağlı ənənələr; sosial birlik və paylaşma ənənələri; tamaşa ənənələri; oyun ənənələri; mətbəx ənənələri.

İkinci fəslin birinci yarımfəsli ***"İlaxır çərşənbələrlə bağlı ənənələr"*** adlanır. Novruz mərasim kompleksinə daxil olan mərasimlərin əsas hissəsini Novruz bayramı gününə – Yeni ilin ilk gününə qədərki ilaxır çərşənbə mərasimləri təşkil edir. Qeyd edək ki, bu çərşənbələr təkcə köhnə ilin yola salınması baxımından deyil, həm də elmi mübahisələrə səbəb olması baxımından diqqətçəkicidir. Bu mübahisələrin ən faydalı cəhəti ondan ibarətdir ki, polemikalar, mübahisələr fonunda Novruz bayramı ilə bağlı çoxlu maraqlı faktlar, tədqiqatlar meydana çıxır [1].

İlaxır çərşənbələrin sayı 4-dür. Bu, ən geniş yayılmış xalq inancıdır. Belə inanc mətnlərindən birində deyilir ki, qışda hər şey yatıb donur. Yaz gəlib dörd dəfəyə bunları ayıldır. Bunların ayılması Novruz bayramında olur. Ona görə də Novruz bayramı dörd həftədir [2].

Bu dörd çərşənbə xalq təqvimində qışın son ayı olan Boz ayın dörd çərşənbəsidir. Xalq təqvimində də qışın müddəti 3 aydır. Əvvəlcə dekabrın 20-dən yanvarın 30-dək davam edən 40 günlük Böyük çillə, ardı ilə fevralın 1-dən 20-dək davam edən Kiçik çillə, sonda fevralın 21-dən martın 21-dək davam edən Boz ay gəlir. Boz ay həm qışın, həm də ilin son ayıdır. Onun 4 çərşənbəsi köhnə ilin sonu – yeni ilin ərəfəsi kimi xalq içərisində əlamətdar günlər kimi xüsusi fərqləndirilir və qeyd olunur. Bəzi bölgələrdə xalq təqvimindəki Boz ayın 4 çərşənbəsi ilə bərabər onlardan əvvəlki 3 çərşənbə də əlamətdar hesab olunur və onların da öz adları var.

İlaxır çərşənbələrlə bağlı ümumiləşdirmə-sistemləşdirmə işini ilk dəfə folklorşünas A.Nəbiyev aparmış, "İlaxır çərşənbələr" adlanan kitabçasında bu dörd çərşənbəni aşağıdakı adlar altında bu ardıcıllıqla sıralamışdır: Su, od, yel,

---

[1] Hacıyeva M. Ən qədim xalq bayramı // Ədəbi düşüncələr. Bakı: Azərnəşr, 2003, s.43-51; Cəfərzadə Ə. Unudulmuş əziz günlərimizdən // "Azərbaycan" jurnalı, 2001-ci il, № 9, s. 159-177; Nərimanoğlu K.V. Özümüz, sözümüz. Bakı: Çinar-Çap, 2005, 621 s.; Paşabəyli Ə. İlin axır çərşənbəsi // "Dədə Qorqud" jur., 2009, № 1, s. 112-115; Qafarlı R. Novruz – yaranış, oyanış və yeniləşmə bayramı // "Xalq qəzeti", 20 mart 2013; Xəlil A. Türk xalqlarının yaz bayramı və Novruz. Bakı: 2012, 144 s.

[2] Azərbaycan folkloru antologiyası. I cild. Naxçıvan folkloru / Tərtib edənlər: T.Fərzəliyev, M.Qasımlı. Bakı: Sabah, 1994, s.56

torpaq çərşənbəsi[1]. Bir sıra görkəmli alimlər dörd ünsür məsələsi ilə bağlı diqqətçəkici fikirlər söyləmişlər[2].

İlaxır çərşənbələrin 4 ünsürlə bağlılığı Novruz mərasim kompleksinin əsaslarına aid olan "cəmlə//cəmrə" anlayışı ilə də təsdiq olunur. Əbdülxalıq (Abdulhaluk) Çay "cəmrə" anlayışı barədə türk tədqiqatçılarının verdikləri məlumatları ümumiləşdirərək yazır ki, baharın gəlməsi xalq arasında ataş və istiləşmə mənasında olan "cəmrə" ilə də ifadə olunur. Cəmrə 20 fevralda havaya, 27 fevralda suya, 6 martda torpağa düşər. Bu, sira ilə havanın, suyun və torpağın istiləşməyə başlaması mənasındadır[3]. Bu məlumatlar göstərir ki, cəmlələr 4 çərşənbənin 4 ünsürlə hər hansı bağlılığına da işarə edir. Elə yuxarıdakı məlumatları sistemləşdirsək, bu, aydın olar:

Birinci çərşənbə --------- birinci cəmlə ------- havaya cəmlə dəydi;
İkinci çərşənbə ----------- ikinci cəmlə -------- suya cəmlə dəydi;
Üçüncü çərşənbə --------- üçüncü cəmlə ------ yerə cəmlə dəydi;
Dördüncü çərşənbə ------ dördüncü cəmlə ---- ............................

Göründüyü kimi burada 4 ünsürün ilaxır çərşənbələrdə bir-biri ilə əlaqəsi, daha doğrusu, ünsürlərin növbə ilə oyanması öz əksini tapmışdır. Bizim fikrimizcə, "cəmlə" elə od ünsürünün özüdür. Birinci çərşənbədə od özü oyanır, sonra növbə ilə o biri ünsürləri oyadır. Bu halda yuxarıdakı cədvəli elmi şəkildə belə tamamlamaq olar:

Birinci çərşənbə ---------- birinci cəmlə ------- od oyanır;
İkinci çərşənbə ----------- ikinci cəmlə -------- hava oyanır;
Üçüncü çərşənbə --------- üçüncü cəmlə ------ su oyanır;
Dördüncü çərşənbə ------ dördüncü cəmlə ---- yer (torpaq) oyanır.

Cəmlə dəymə, cəmlə düşmə elə oyanma, dirilmədir. Cəlal Bəydili yazır ki, inama görə, qışda hər şey yatıb donar. Yaz isə gəlib dörd dəfəmə bunları ayıldar ki, bunların da ayılması Novruz bayramında olar. Ona görə Novruz bayramı dörd həftədir – deyilir... Hər il beləcə dünyanın yaradılışı bu bayramda canlandırılır. Əski dünya nizamı dağılır, yenisi yaranır"[4].

---

[1] Nəbiyev A. İlaxır çərşənbələr. Bakı: Azərnəşr, 1992, s.41
[2] Abdulla B. Azərbaycan mərasim folkloru. Bakı: Qismət, 2005, 208 s.; Təhmasib M. Adət, ənənə, mərasim, bayram // "Ədəbiyyat və incəsənət" qəz., 1966; Qafarlı R. Novruz – yaranış, oyanış və yeniləşmə bayramı // "Xalq qəzeti", 20 mart 2013.; Qasımlı M. Novruz mərasim kompleksinin tarixi-mifoloji anlamı / Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər. VIII kitab. Bakı: Səda, 1999, s. 50-57.
[3] Çay A.M. Nevruz – Türk Ergenekon Bayramı. Sekizinci Baskı. Ankara, 1999, s.378
[4] Bəydili (Məmmədov) C. Türk mifoloji sözlüyü. Bakı: Elm, 2003, s.278

Müxtəlif tədqiqatçıların söylədiyi fikirlər və apardığımız təhlil əsasında 4 ilaxır çərşənbənin adları ilə bağlı aşağıdakı nəticəyə gəlirik:

a) 4 ilaxır çərşənbənin müxtəlif bölgələrdə fərqli adları vardır. Bu çərşənbələr heç bir bölgədə qədim Şərq 4 ünsür sistemi olan "ab-atəş-xak-bad" sxeminə uyğun olaraq ardıcıl şəkildə "Su çərşənbəsi", "Od çərşənbəsi", "Torpaq çərşənbəsi", "Yel çərşənbəsi" kimi adlandırılmamışdır.

b) 4 ilaxır çərşənbənin el arasındakı adları içərisində qarışıq şəkildə "Su çərşənbəsi", "Torpaq çərşənbəsi", "Yel çərşənbəsi", "Ağac çərşənbəsi" adlarına da rast gəlinir. Bu, Novruz bayramının xalq təsəvvüründəki fəlsəfəsi ilə bağlıdır. Bu fəlsəfənin kökləri birbaşa qədim türk mifologiyası ilə bağlıdır.

c) Novruz bayramının mifik fəlsəfəsinə görə, təbiət qışda ölür, yazda dirilir. Dirilmə oyanma şəklində olur. 4 ilaxır çərşənbə yazın, yeni ilin ərəfəsidir. Hər çərşənbədə bir ünsür oyanır və bunların oyanması ilə bütün təbiət dirilir və Yeni il başlanır. Bu, Novruzun fəlsəfəsidir və 4 çərşənbənin 4 ünsürlə bağlılığı Novruzun təbiət, dünya, ümumiyyətlə, varlıq aləmi haqqındakı fəlsəfəsini ortaya qoyur.

ç) Azərbaycan Novruz bayramında 4 çərşənbədə 4 ünsürün oyanması ənənəsi qədim türk mifik görüşləri ilə bağlıdır. Qədim türk mifologiyasında dünyanın yaradılışının əsasında 5 ünsür durur: torpaq, ağac, atəş, dəmir, su. Bu təsəvvür zamanla 4 ünsür haqqındakı qədim Şərq görüşlərinə qarışmışdır. Daha sonra 4 ünsür fəlsəfəsi hakim düşüncəyə çevrilsə də, 5 ünsür haqqındakı inanclar xalq düşüncəsində, folklorda, o cümlədən Novruzla bağlı təsəvvürlərdə yaşamaqda davam etmişdir.

Novruz mərasim kompleksinin magik xarakterli ayinlərindən biri danatma adətidir. Mərasim Novruz gecəsi icra olunur. İnsanlar səhərə qədər oyaq qalır, Günəşi qarşılayırlar. Novruz bayramı mərasim kompleksi Od-Günəş ünsürü ilə sıx bağlıdır. Bu, acı, sərt, ölüm, aclıq, qıtlıq saçan qışın yola salınması, həyat verən, bolluq, ruzi-bərəkət gətirən yazın qarşılanması mərasimidir. Lakin yaz öz-özünə gəlmirdi. İnsanlar müxtəlif magik mərasimlərlə onu gətirir və qarşılayırdılar. İnsanlar Novruz gecəsi oyaq qalıb, səhər dan yeri sökülәndə yeni ildə ilk dəfə doğacaq Günəşi gözləyirdilər. Bu, Günəşin hər günkü doğması yox, Yeni ildə el-obaya, dünyaya ilk gəlişi idi. Çünki soyuq qışdan sonra insanların, heyvanların, bitkilərin bütün həyatı Günəşin gəlişindən asılı idi. Axır çərşənbənin əsas adətlərindən biri papaqatdı adətidir. Buna bəzi yerlərdə qurşaqsallama, şalsallama, baca-baca, yaxud nünnünü də deyilir. Məzmunu axır çərşənbə gecəsi evlərə papaq atıb, pay istəməkdir. Papaqatdı adəti ilə bağlı çoxsaylı folklor məlumatları və öz müşahidələrimiz əsasında deyə bilərik ki, papaqatdı adətinin iki mənası var: Birincisi, üzdə olan, hamı tərəfindən icra olunan bayrampayı

yığmaq adəti. Bunu, adətən, uşaqlar, o cümlədən nişanlı oğlanlar icra edirlər. İkincisi, magik mahiyyətli bəxtsınama adəti. Bunu, adətən, sevdiyi qızların evinə papaq, qurşaq atan oğlanlar icra edirdilər. Atılan papaq, qurşaq tanınmalı idi. Oğlanlar verilən paydan qızın anasının, özünün, yaxud bu sevgidən xəbəri olan digər kimsələrin bu sevgiyə münasibətini öyrənirdilər. Ona görə də bəxtlərinə axır çərşənbə gecəsi hansı xəbərin çıxacağını böyük həyəcanla gözləyirdilər. Cavab papağa, qurşağa qoyulan əşyalardan bəlli olurdu. Şirin şeylər, payın bol qoyulması və s. bunu bildirirdi.

İkinci fəslin ikinci yarımfəsli "***Sosial birlik və paylaşma ənənələri***" adlanır. Novruz bayramı cəmiyyət insanlarının bütün həyatını əhatə edən nəhəng bir mərasim kompleksidir. Cəmiyyətlə bağlı nə varsa – hamısı Novruz ərəfəsində – ilaxır çərşənbədə təmizlənir, paklanır, təzələnir və yeni ilə, yeni ilin ilk gününə – Novruza artıq yenilənmiş (yenidən doğulmuş) vəziyyətdə daxil olur. Bu yenilənmə sosial münasibətlər sahəsində özünü xüsusi göstərir. Novruzda təkcə zaman, həyət-baca, ev-eşik, bağ-bağat təzələnmir, il ərzində insanlar, tayfalar, qonşular, nəsillər və s. sosial qruplar arasında baş vermiş konfliktlər həll edilir. Bunun əsasında inanc durur. İnanca görə, əgər küsülülər barışmasalar, düşmənlik yeni ildə də davam edəcək və o, özü ilə uğursuzluq və bəla gətirəcək. Ona görə də insanlar Novruzda həm özləri barışmağa, həm də başqalarını barışdırmağa çalışırlar. Bu barışmaq məsələsinə ümumi halda nəzər salarsaq, bunun cəmiyyətin daxili özünütənzimləmə, özünüyeniləmə mexanizmi olduğunu görərik. Füzuli Bayat yazır ki, Yeni gün/Novruz bayramının hər il qutlanması yaşlanan, ölən təbiəti yenidən diriltməklə həm də etnosun əbədiliyi düşüncəsini önə çəkmiş olur. Yeni gün/Novruz bayramı, sadəcə, fərdlərin deyil, millətin dirçəlişi, yenilənməsi olduğundan bərabərlik, birlik bayramıdır. Oyanan təbiət ana insanların və heyvanların, quşların və balıqların ruzisini gətirməklə Yeni gün/Novruzu bolluq, bərəkət, artım bayramına çevirir. Yeni gün/Novruz bayramını keçirənlər təbiətdəki bərabərlik kodunu cəmiyyət müstəvisi üzərinə gətirməklə ona sosial bir anlam vermişdir. Fəlsəfi olaraq gecə ilə gündüzün bərabərliyi sosial bərabərlik, sosial nizam kimi təbiətdən cəmiyyətə daşınmış, sosial tarazlıq bərpa edilmişdir. S.Rzasoy da yazır ki, Novruz bayramı onu təşkil edən bütün ünsürlərin sosial-psixoloji harmoniyasında reallaşır. Bayramda təbiət, cəmiyyət və zaman arasında qlobal harmoniyanın yaranması əsas şərtdir. Biri-biri ilə küsülülükdə, ziddiyyətdə, konfliktdə olan insan, qonşu, ailə, kənd və s. etnik vahidlər hökmən barışmalı, sülh yaranmalıdır. İl ərzində cəmiyyətin sosial strukturunda yaranmış bütün disharmoniya Novruz bayramında aradan qaldırılaraq sakral sosial-psixoloji harmoniya ilə əvəz edilir. Həmin harmoniya istisnasız olaraq sosial-siyasi sistemin bütün struktur səviyyələrini əhatə edir. Bu

baxımdan, Novruz bayramının sosial-psixoloji əsasında hər cür ziddiyyətləri, konfliktləri aradan qaldıran sülh ideyası durur[1].

Novruzda cəmiyyətin yenilənməsi, sosial tarazlığın əldə edilməsi sosial birlik və paylaşma şəklində baş verir. Ölənlər (əcdadlar) "Məzar üstə getmə", "Qara bayram", "Yasdançıxarma" kimi adətlər vasitəsi ilə Novruzda yaranan sosial birlik və paylaşmaya qoşulurlar. Novruzda sosial birlik və paylaşma ideyasının təcəssüm etdirən adətlərdən biri Azərbaycan cəmiyyətində sosial rifah halının yaxşılaşması ilə indi izləri çox az qalmış "Mürvət toyu" adətidir. Adətin məzmun və mahiyyəti bundan ibarətdir ki, el-oba Novruz bayramında bir yerə yığışıb, hər hansı yetimin, kimsəsizin toyunu edir. Bu zaman toyun bütün xərcini el-oba çəkir.

İkinci fəslin üçüncü yarımfəsli "***Tamaşa ənənələri***" adlanır. Novruz bayramı ilə bağlı mərasim ənənələrinin böyük bir qismini tamaşa və oyunlar təşkil edir. Novruz tamaşa və oyunları bəzən bir-birindən fərqləndirmək, hansının tamaşa, hansının isə oyun olduğunu müəyyənləşdirmək çətin olur. Bunun iki əsas səbəbi var: Birincisi, bu tamaşa və oyunlar bütün hallarda Novruz mərasim kompleksinin tərkib hissəsi olmaqla ilin dəyişməsi – qışın yola salınması və yazın qarşılanması (çağırılması) ilə bağlıdır. Bu tamaşa və oyunlar müasir dövrümüzdən baxdıqda böyüklərin və kiçiklərin əyləncəsi təsirini bağışlayır. Düzdür, tamaşa və oyunların həm də əyləncə funksiyası var. Lakin onların əyləncə funksiyasının altında duran əsas mənası təqlidi hərəkətlərlə qışın yola salınması (bəlkə də, qovulması) və yazın qarşılanması (çağırılması, dəvət olunması) ilə bağlıdır. Bu halda həm tamaşalar, həm də oyunlar eyni məqsədə xidmət etməklə birləşirlər. Bunlar, əslində, bir-biri ilə sıx bağlı olub, vahid mərasim kompleksinin tərkib hissəsi kimi, eyni ideyanı təcəssüm etdirirlər. İkincisi, tamaşa da, oyun da qədim dünyanın düşüncəsini, məkan, zaman, insan haqqında dünyagörüşünü özlərində əks etdirir. Novruzla bağlı tamaşa və oyunlar da, əslində, türklərin ibtidai icma quruluşuna aid olan mədəniyyət tarixinin qədim mərhələlərini təcəssüm etdirir. Bu halda onlar öz tarixi mənşəyi etibarilə bir-birinə bağlıdır.

Lakin Novruz tamaşa və oyunları hər nə qədər bir-birinə bənzəsə də, onları fərqləndirən əlamətlər var: tamaşalarda əsas olan gülüş, oyunlarda əsas olan isə yarışdır. Ancaq Novruz tamaşalarındakı gülüş, nə də yarış, adi gülüş, yaxud adi yarış olmayıb, mərasimi gülüş, mərasimi yarışdır. Bu tamaşa və

[1] Rzasoy S. Novruz bayramının konseptual-fəlsəfi əsasları / Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər, XXXI kitab. Bakı: 2009, s. 88

oyunlardakı gülüş və yarışın xüsusi vəzifəsi, görəcəyi iş var. Bu iş qışın yola salınmasından və yazın qarşılanmasından ibarətdir. Bu işin görülməsində gülüş və yarış əsas vasitələrdir. Onlarsız nə qış getməz, nə də yaz gəlməz. Bunlar qədim azərbaycanlının təbiətə, onu əhatə edə dünyaya magik təsir vasitələridir. Onlarda magiya – sehr, mistika vardır.

Novruz tamaşalarında üç tip ənənəvi obrazın olması görünür:

Birincisi, getməkdə, qocalaraq ölməkdə olan, sərt, pis üzlü, insanlara aclıq, səfalət gətirən qışı təmsil edən obrazlar;

İkincisi, gəlməkdə, dirilməkdə, oyanmaqda olan və insanlara həyat bəxş edən yazı təmsil edən obrazlar;

Üçüncüsü, yazın qələbəsini təmsil edən gülüş obrazı.

Novruz bayramının ən məşhur tamaşası "Kosa-kosa" tamaşasıdır. Onun müxtəlif variantları var. Ancaq bütün variantlar eyni motiv ətrafında birləşir və ümumi məzmuna malikdir. Tamaşa hər yerdə əsas personajın – kosanın adı ilə adlanır. Bu, bir karnaval personajıdır və onun geyimindəki simvollar – tərsinəlik, gülüş yaradıcı elementlər Cütçü babanın geyimi ilə eyni məqsədə xidmət edir. Kosanın əyninə tərsinə kürk geyindirir, üzünü möhkəm unlayır, başına şiş papaq, yaxud motal papaq qoyur, boynuna zınqırov asır, qarnına paltarının altından yastıqça bağlayır, əlinə qırmızı parça ilə çağa kimi bələnmiş çömçə verirlər. Sonra qapı-qapı gəzir, nəğmələr oxuyaraq pay yığırlar. Müxtəlif bölgələrdə bu tamaşa müəyyən təfərrüatlarına görə fərqlənir. Lakin bütün variantlar üçün xarakterik olan cəhətlər var və onlar aşağıdakılardır.

a) Kosa bütün variantlarda qışın rəmzidir. Onun əynində tərsinə geyilmiş kürk və üzünə vurulmuş un birbaşa qarı – qışı rəmzləndirir. Digər atributlar da köhnə ili – qışı bildirir.

b) "Kosa-Kosa" tamaşasının bütün variantlarında yazla qışın mübarizəsi əks olunmuşdur. M.Kazımoğlunun yazdığı kimi, qışın nəticəsində yaranmış qıtlıq və məhrumiyyətdən söz açmaq "Kosa-kosa" tamaşasının əsas motivlərindəndir[1].

c) Kosa köhnə ilin – qışın obrazıdır. Lakin bu obraz təkcə qışı yox, eyni zamanda gəlməkdə, daxil olmaqda, dirilməkdə, oyanmaqda, doğulmaqda olan yazı təmsil edir. Onun qarnına paltarının altından bağlanan yastıqça kosanın ikicanlı, yəni hamilə olduğunu göstərir. Kosanı qapı-qapı gəzdirən uşaqların nəğməsində aşağıdakı parça, demək olar ki, bütün variantlarda var:

Mənim Kosam canlıdı,
Qolları mərcanlıdı,

[1] Kazımoğlu M. Xalq gülüşünün poetikası. Bakı: Elm, 2006, s. 84

Kosama əl vurmayın,
Kosam iki canlıdı.

M.Kazımoğlu yazır ki, biz "Kosa-kosa" tamaşasında qışın da xədimlik kimi bir maska olması fikrini irəli sürürük. Bəli, kosa məhz qış (qocalıq) libası geymiş yazdır (cavanlıqdır). Belə olmasaydı, tamaşada kosanın "ikicanlılı-ğı"ndan (hamiləliyindən) danışılmaz, onun doğub-törəmə, bar-bəhər vermə funksiyasına işarə edilməzdi[1].

ç) Bəzi variantlarda kosanın əlinə qırmızı parça ilə çağa kimi bələnmiş çömçənin verilməsi də ilin dəyişməsini simvollaşdırır. Bu halda Kosa köhnə ili, əlindəki bəzədilmiş çömçə isə təzə doğulacaq yeni ili bildirir.

d) Variantlarda Kosanın yıxılaraq ölməsi və yenidən dirilməsi, yaxud keçi tərəfindən öldürülməsi yeni ilin köhnə ili əvəz etməsinin ölüb-dirilmə şəklində təsəvvür edildiyini göstərir. Azad Nəbiyev yazır ki, yazın gəlişi doğulma yox, daha erkən təsəvvürlərdən olan ölüb-dirilmə anlamı ilə bağlıdır (86, 283). Cəlal Bəydili göstərir ki, ölüb-dirilmə motivi, demək olar ki, çox vaxt məntiqi ardıcıllıqdan uzaq hadisələr düzümündən ibarət, üstəlik də qəlibləşmiş hazır mətn parçaları olmayan ritual qaynaqlı bütün oyunlarda var (40, 197). Ramil Əliyev ölüb-dirilmənin köklərinin od və su kimi ilkin ünsürlərlə bağlı olduğunu göstərir. Bu ünsürlər isə, məlum ilduğu kimi, Novruz bayramının ayrılmaz ünsürləridir. R.Əliyev yazır ki, həyat ölümü doğurur, ölüm isə yenidən həyatda doğulur. İnsan bu ziddiyyəti dərk edirdi. Bu ziddiyyətə səbəb olan od və su stixiyaları idi. Od və su həm həyatı, həm də yoxluğu təmsil edirdi. Onların mifik təfəkkürdə obrazlaşdırılması isə mif mətnlərində ölüb-dirilmə ilə bağlı təsəvvürlərin yaranmasına imkan verirdi[2].

e) Variantların əsas hissəsində kosa obrazı ilə bərabər keçəl də iştirak edir. Əgər kosa qışla yazı birgə təmsil edən obraz, yəni yazı doğan qış obrazıdırsa, keçəl öz keçəlliyi ilə qışı təmsil edir. Bu da kosa kimi komik bir obrazdır, gülməli görkəmi var: başına qurudulmuş qoyun qarnı keçirməklə özünü keçəl şəklinə salır.

Novruzun maraqlı tamaşalarından biri "Xanbəzəmə"dir. Axır çərşənbədə keçirilən bu tamaşada xanın hakimiyyəti qurulur. Onun vəzir-vəkili, köməkçiləri olur. İnsanlar ona şikayət edir. O isə müvafiq cəzalar təyin edirdi. Bu tamaşa da bütün Novruz tamaşaları kimi ilin dəyişməsini, yazla qışın mübarizəsini özündə

---

[1] Kazımoğlu M. Xalq gülüşünün poetikası. Bakı: Elm, 2006, s. 84-85

[2] Əliyev R. Ölüb-dirilmə motivinin tipləri və tipikləşdirilməsi haqqında // "Dədə Qorqud" jur., 2005, № 3, s. 36

əks etdirir. Burada xan, onun hakimiyyəti köhnə ili təmsil edir. Ən diqqətçəkən cəhət gülüşlə bağlıdır. Əgər xan gülsə, onun hakimiyyəti sona çatmış olur. Yəni gülüşlə xanın – köhnə ilin, qışın hakimiyyəti başa çatır.

İkinci fəslin dördüncü yarımfəsli "***Oyun ənənələri***" adlanır. Novruz tamaşa və oyunlarında tamaşaları fərqləndirən əsas əlamət gülüş, oyunları fərqləndirən əsas əlamət yarışdır. Novruz tamaşalarındakı gülüş yazla qışın mübarizəsi ilə bağlı olub, yazın gəlişinə xidmət etdiyi kimi Novruz oyunlarındakı yarışma da yazla qışın, kosmosla xaosun mübarizəsi ilə bağlıdır. "Çərşənbə rituallarınada da Xaos – Kosmos oppozitiv invariantının transformativ variantları kimi qarşı-qarşıya qoyulan qruplar və onların mübarizəsi, döyüşü, davası əksini tapır. Bu qarşı-qarşıya duran tərəfləri, yaxud qrupları təmsil olunma obyektlərinə görə dörd qrupa bölə bilərik:

1. Zoomorfik səviyyədə ritual qarşıdurma;
2. Antropomorfik səviyyədə ritual qarşıdurma;
3. Əşyavi səviyyədə ritual qarşıdurma;
4. Qarışıq səviyyədə ritual qarşıdurma[1].

Novruz oyunlarının hamısında yarış var. Novruz oyunlarındakı yarışmalar öz kökləri etibarilə kosmos-xaos qarşıdurmasını əks etdirir. Oyunların bir çoxu heyvanlarla bağlıdır. Məsələn, "Xoruzdöyüşdürmə", "İtboğuşdurma", "Qoçdöyüşü" oyunları. Novruz bayramının ən mühüm və geniş yayılmış oyunlarından biri "Yumurta döyüşdürmək"dir. Bu oyunda yumurtalar bir-birinə vurulur, sınan yumurta məğlub tərəf olur. Novruz bayramında oynanılan yumurtadöyüşmə oyunu birbaşa bu bayramın yaradılış fəlsəfəsini əks etdirir. Onda yaradılışın qədim mifik cizgi və mahiyyəti əks olunub. Yaradılış mübarizə yolu ilə baş verir və yaradılışı qalib gələn tərəf həyata keçirir.

Novruz bayramında oynanılan oyunlardan biri "Küşti", yaxud başqa adla "Qurşaqtutma" oyunudur. Bu, sadəcə, insanların güləş yolu ilə yarışmasıdır. Güləşmə digər el şənliklərində də olur. İki tərəfdən biri qalib, biri məğlub olur.

Novruz mərasim kompleksinə daxil olan oyunlar çoxdur. Həmin oyunların hamısı bir ideya xətti ətrafında birləşir: köhnə ilin yola salınması (məğlub edilərək qovulması) və yeni ilin qarşılanması (çağırılması, dəvət olunması). Tamaşalar üçün əsas əlamət gülüş, oyunlar üçün əsas əlamət yarışma (mübarizə) olsa da, oyunlarda da gülüş ayrılmaz əlamət kimi iştirak edir. Çünki gülüş yazın rəmzi olub, qışı məğlub etmək üçün ən təsirli magik vasitədir.

---

[1] Allahverdiyev R. Azərbaycan təqvim miflərinin semantikası: Fil. üzrə fəl. dok. ...dissertasiya. Bakı, 2011, s.123

İkinci fəslin beşinci yarımfəsli "***Mətbəx ənənələri***" adlanır. Novruz bayramının zəngin mətbəx ənənələri yaradılış fəlsəfəsi ilə bağlıdır. Bayram yeməkləri bir qida olsa da, bayramda onlar bayramla bağlı əlavə məna qazanır. Məsələn, "Yumurta boyamaq" adəti. İnsanlar il boyu yumurta qaynadıb yeyirlər. Lakin Novruzda qaynanmış yumurtanı həm də boyayırlar ki, bunun da bayramla bağlı xüsusi mənası vardır. "Yumurta boyamaq çox-çox qədimlərdən adət olub. Buna müxtəlif xalqlar öz dinlərinə, inam və etiqadlarına, həyat tərzlərinə uyğun cavablar vermişlər. Qədim azərbaycanlıların ilaxır çərşənbədə və Novruz bayramı günlərində qırmızı yumurta boyamaq adəti əcdadın və torpağın dirilməsi, canlanması, bir sözlə, oyanma-dirilmə ayini ilə əlaqədar olan ən qədim təsəvvürlərlə bağlı olduğunu göstərir"[1].

Novruz süfrəsindəki qırmızı boyanmış yumurta ölüb-dirilmə xarakterli bayram ayini ilə bağlıdır. Ola bilsin ki, lap keçmişlərdə ilin dəyişməsi mərasimində bişmiş yumurtanın yeyilməsi kimi xüsusi mərasim olub. Ancaq bu, xüsusi mərasim olmaya da bilərdi. Novruzun ölüb-dirilmə fəlsəfəsi hamıya aiddir. Ona görə də çoxlu yumurta bişirilirdi ki, hamı ondan dadaraq yeni ilə – yeni dünyaya keçə bilsin. Bişmiş yumurtanın hər süfrədə, bayram xonçasında mütləq şəkildə olması bununla bağlıdır.

Novruzun mərasimi simvolikası "Yeddi ləvin", yaxud "Yeddi sin" (variantı: "Yeddi şin") adlanan adətdə xüsusi ifadə olunur. "Yeddi ləvin" dialektlərdə "yeddi löyün" şəklində də deyilir. Mənası yeddi növ yemək deməkdir. A.Xəlil yazır ki, yeddi növ yemək hazırlamaq (yeddi löyün) və ya bayram süfrəsinə eyni hərflə başlayan yeddi ədəd bayram nəməri qoymaq adəti olmuşdur[2].

Novruzun mərasimi yeməklərindən biri də səməni halvasıdır. Səməni bitki/ağac kulti ilə bağlıdır. Ağac qədim türk mifologiyasında torpaq, atəş, dəmir və su ilə bərabər dünyanın yaradılışının əsasında duran beş ünsürdən biridir. Səməni birbaşa yeni həyatı, yenidən yaranmanı rəmzləndirir. Belə ki, səməni Novruz ərəfəsində qablarda dənli bitkilərdən göyərdilir. O, yazın, yaşıllığın, əkin-biçinin rəmzidir. Səmənin göyərdilməsi bir ayindir. Ona görə də ondan hazırlanan şirniyyatlar, o cümlədən səməni halvası mərasim yeməyi olub, Novruz bayramının yaradılış fəlsəfəsini özündə əks etdirir.

---

[1] Novruz Bayramı Ensiklopediyası. Tərtib edənlər: Bəhlul Abdulla, Tofiq Babayev. Bakı: Şərq-Qərb, 2008, 208 s.

[2] Hacılı A. Mifopoetik ənənədə dünya ağacı / Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər. XI kitab. Bakı: Səda, 2002, s. 122

Dissertasiyanın III fəsli "**Novruz bayramı ilə bağlı inanclar**" adlanır. Novruz bayramı ilə bağlı inanclar həmin ənənələrlə yaşayan insanların düşüncəsinin, dünya haqqında, varlıq aləminin məkan-zaman quruluşu haqqında təsəvvürlərinin əsasında durur. Həmin məkan-zaman təsəvvürləri inanclarda obrazlar şəklində öz təcəssümünü tapmışdır. Bu cəhətdən Novruzun bütün fəlsəfəsinin, məna və mahiyyətinin kökləri inanclarda əks olunmuşdur.

Üçüncü fəslin birinci yarımfəsli "***Novruz inanclarında qeyri-adi zaman nöqtəsi***" adlanır. Təzə ilin köhnə ili (yaxud təzə dünyanın köhnə dünyanı) əvəz etdiyi Novruz bayramında iki zaman üz-üzə gəlir. Bunlardan biri getməkdə olan zaman, o birisi isə gəlməkdə olan zamandır. Bunların bir-birini əvəz etməsi Novruz bayramında baş verir. Bu zaman əvəzlənməsində ən mühüm məqam ilin təhvil olunduğu zaman kəsiyidir. Həmin zaman kəsiyi ilə bağlı inanclar vardır. O inanclardan məlum olur ki, ilin təhvil olduğu məqam qeyri-adi zamandır. Bu zamanda qeyri-adi hadisələr baş verir. Həmin qeyri-adi zamanın əsas xüsusiyyəti ondan ibarətdir ki, bu, bir başlanğıc anı, qeyri-adi zaman nöqtəsidir. Bütün yeni zaman, yeni məkan və bu zaman-məkan daxilində baş verəcək hadisələr həmin zaman başlanğıcından, zaman nöqtəsindən başlanır. Bu zaman nöqtəsində baş verənlər fərqli xüsusiyyətlərə malik olur. C.Bəydili (Məmmədov) göstərir ki, ilin təhvil olma anı xalq ənənəsində həm də "aləmin yatan vaxtı" adlanır. Müəllif yazır ki, aləmin yatan vaxtı Azərbaycan xalq inamlarında qışın sonunu, yazın başlanğıc anını göstərən mifik vaxtdır. Mifoloji təsəvvürlərdə aləmin yatan vaxtı ilin axır çərşənbəsinə təsadüf edir. Bununla bağlı deyilir ki, Novruz bayramına açılacaq gecədə gündüzlə gecə tən yarı olan zaman çaylar bir anlığa dayanır və sonra yenidən axır. Bu görüşlərə görə, aləmin yatan vaxtı deyilən həmin anda bütün canlı və cansız bilinən aləmdə nə varsa hamısı bir anlığa yuxuya gedər, yəni sanki ölüb-dirilər. O anda kim nə arzu eləsə, diləyi hasil olar [1].

İnanclardan məlum olur ki, ilin təhvil olma anını insan yox, heyvanlar hiss edir, o cümlədən bu zaman nöqtəsində sular bir anlığa dayanır, ağaclarsa başını yerə əyərək torpağa toxundurur. Lakin bu zaman nöqtəsinin qeyri-adiliyi təkcə bunlarla qurtarmır. Əgər insan göstərilən əlamətləri başa düşüb, bunun ilin təhvil məqamı olmasını anlasa, həmin an ürəyində nə keçirsə, o da həyata keçər; insana vergi verilər, ürəyində tutduğu niyyət hasil olar, arzu-istəkləri baş tutar. Beləliklə, ilin təhvil olunduğu an qeyri-adi zaman nöqtəsidir və bu zamana

---

[1] Bəydili (Məmmədov) C. Yaz bayramı ilə bağlı bir sıra mifoloji obraz və anlayışların simvolikasından // "Dədə Qorqud" jur., 2003, № 1, s. 41

təsadüf edən, ona tuş gələn insanın istənilən arzusu həyata keçir. Bəs bu, nə ilə bağlıdır?

Novruz mərasim kompleksində ilin təhvil olma anı qeyri-adi zaman nöqtəsidir. Bu zaman anında hər şey fərqli olur: heyvanlar qeyri-adi hərəkətlər edib insanları bu andan xəbərdar etməyə çalışırlar. Başqa təbiət ünsürləri də adi hallarından çıxıb, bir anlığa qeyri-adi hala düşürlər: həmin an sular dayanır, ağaclar isə başlarını yerə əyib torpağa toxundururlar. Bu andan xəbər tutan insanın həmin məqamda ürəyindən keçirdiyi arzu, istək, niyyət hansı məzmunda olmasından asılı olmayaraq dərhal həyata keçir.

Üçüncü fəslin ikinci yarımfəsli ***"Novruz inanclarında təbiət kultları"*** adlanır. Novruz inanclarının öyrənilməsi göstərir ki, babalarımız od, su, bitki, torpaq kimi təbiət ünsürlərini kultlaşdırmış, yəni bu ünsürlərin qeyri-adi varlıqlar olduğuna inanmış, onları müqəddəs varlıqlar hesab etmiş və bu ünsürlərlə bağlı mərasimi hərəkətlər icra etmişlər.

Üçüncü fəslin ikinci yarımfəslinin birinci paraqrafında *"Od kultu ilə bağlı inanclar"* araşdırılır. Novruz bayramını od-ocaqsız, gur Novruz tonqalı olmadan təsəvvür etmək mümkün deyildir. İnsanlar qaranlıq düşən kimi böyük tonqallar yandırır və bu tonqalların alovları gecənin qaranlığını işıqlandıraraq adamlarda böyük sevinc çoşqusu, şən əhval-ruhiyyə yaradır. Bu cəhətdən Novruzla bağlı inanclarda od kultunun – odu müqəddəsləşdirmənin mühüm yer tutduğunu görürük.

Ümumiyyətlə od türklərin inanclarında mühüm mövqeyə malikdir. Seyfəddin Altaylı yazır ki, atəş də, eynilə su kimi türklər tərəfindən müqəddəs sayılıb. Dünyanın yaradılması, yaz və atəş arasında bir əlaqənin olduğuna inanılıb[1]. Bütün bu təsəvvürlər öz izlərini Novruz adətlərində saxlayıb.

Bu bayramda tonqalqalama xüsusi mərasimdir. Necə gəldi, harada gəldi tonqal qalamaq, onunla istənilən formada əylənmək olmazdı. Bunun xüsusi rəsmi, qaydaları, yəni mərasimi vardır. Məsələn, Şəkidə olduğu kimi, hər həyətdə böyük tonqallar qalanır, ətrafında şənlənir, üstündən tullanıb deyirlər:

Ağrım, uğrum tökülsün,
Oda düşüb kül olsun.
Yansın alov saçılsın,
Mənim bəxtim açılsın.

---

[1] Altaylı S. Novruz və "Ərgənəkon" dastanı arasındakı oxşarlıqlar // "Dədə Qorqud" jur., 2008, № 2, s. 85

Beləliklə, axır çərşənbə tonqalının özünə məxsus olan bir çox mənaları vardır ki, həmin mənaların hamısı oda inam, oda pərəstiş, yəni od kultu ilə bağlıdır.

Üçüncü fəslin ikinci yarımfəslinin ikinci paraqrafında "*Su kultu ilə bağlı inanclar*" öyrənilir. Bəllidir ki, dörd çərşənbədən ilki su ünsürü ilə bağlıdır. Şəkidə əzəl çərşənbədə sübh tezdən bulaq başına gəlirlər:

Ağırlığım-uğurluğum suya,
Azarım-bezarım suya, –

deyib, su üstündən atlanırlar. Sonra əl-üzlərini yuyur, bir-birlərinin üstünə su atır, sifətlərinə su çiləyirlər. Xəstəliyə tutulanları da su üstündən hoppandırırdılar.

Novruz mərasimlərində insanların bir-birinin üstünə su atması da diqqəti cəlb edir. Təbii ki, bu, su ilə əylənmə deyildir. İnanc mətnlərinin nəzərdən keçirilməsi göstərir ki, su atmaq təmizlənmə, paklanma ayinin tərkib hissəsidir.

Burada əsas məsələ suyun ilkin su olmasıdır. Yəni il təhvil olandan sonra ilk dəfə gələn su pak və möcüzəli sudur. Qaraqoyunlu və Dərələyəz bölgəsi inanclarından birində deyilir ki, axır çərşənbə gecəsinin səhəri sübh tezdən durub axar su üstünə getmək, suya salam verib, üstündən üç dəfə atlanmaq, sonra da həmin sudan bir qab gətirib, həyət-bacaya, evin dörd bucağına səpmək gərəkdir. Deyirlər ki, belə edəndə ilin xoş gələr, ağrı-acı görməzsən [1].

İnsanlar axır çərşənbə gecəsində il təhvil olandan, yəni təzə il girəndən sonra axan təzə suyu – ilk suyu müqəddəs hesab edirlər. Bu su dərdlərə şəfa verir. Naxçıvan bölgəsindən toplanmış inancda deyilir ki, yazda birinci dəfə sel gələndə selin qabağından kim su doldurub içsə, hər dərdi sağalar deyərlər [2].

Üçüncü fəslin ikinci yarımfəslinin üçüncü paraqrafında *"Bitki kultu ilə bağlı inanclar"*dan danışılır**.** Bitki kultu ilə bağlı Novruz inancları müxtəlif mövzular ətrafında birləşir. Bunlardan ən əsas olanı ağacların, xüsusilə söyüd ağacının ilin təhvil olunduğu anda başını torpağa toxundurması, yaxud bir sıra inanclarda deyildiyi kimi səcdə etməsidir. Bu inanc çox geniş yayılmışdır. Mətnlərə görə, ilaxır günü il təhvil olanda ağaclar başını əyib yerə vurur. Deyirlər bunu təkcə at bilir. Bu vaxt kim niyyət eləsə, niyyəti hasil olar.

Novruz bayramını səmənisiz təsəvvür etmək olmur. Ümumiyyətlə, səməni Novruzun əsas atributlarından sayılır. Səməni ilə bağlı inanclar da bitki

---

[1] Azərbaycan folkloru antologiyası. VII cild. Qaraqoyunlu folkloru / Toplayıb tərtib edənlər: H.İsmayılov, Q.Süleymanov. Bakı: Səda, 2002, s.10

[2] Azərbaycan folkloru antologiyası. I cild. Naxçıvan folkloru / Tərtib edənlər: T.Fərzəliyev, M.Qasımlı. Bakı: Sabah, 1994, 388 s.

kultu ilə bağlı qədim təsəvvürlərin izlərini özündə yaşadır. Qazax bölgəsi adətlərinə görə, bir camda qoyulmuş səməninin ailə üzvlərinin üz-gözünə, sinəsinə toxundururlar ki, gözü işıqlı, üzü təravətli, ürəyi möhkəm, sağlam, ömürləri uzun olsun[1]. Buradan görünür ki, səməninin qeyri-adi gücü var: o, insana sağlamlıq və uzun ömür bəxş edə bilir. Ona görə də bayramdan sonra saralıb-solan səməni hara gəldi atmazdılar. Bunun üçün xüsusi mərasim var idi. Qaraqoyunlu bölgəsi inancında deyilir ki, səməni saralıb solanda onu zibilliyə atmazlar. Bu zaman belə səməni çaya atıb, dalınca da şəkər atarlar. Belə olanda evə xeyir-bərəkət gələr [2].

Şirvanda Novruz bayramında səməni ilə bağlı oxunan nəğmə:

| | |
|---|---|
| Səməni, saxla məni, | Atıl-batıl, səməni, |
| İldə göyərdərəm səni. | Vedrə-satıl, səməni |
| Səməni, can səməni, | Tamam cadı-pitilər |
| Sənə qurban, səməni. | Olsun batıl, səməni... |

Bu dua-nəğmədə səməninin qeyri-adi gücünü görürük. Səməninin gücü cadu-pitini dağıdır, əhvalı yaxşılaşdırır, xeyir-bərəkət verir, xəstələri sağaldır, bu gücün sayəsində itiklər tapılır, ayrı düşənlər bir-birinə qovuşur.

Üçüncü fəslin ikinci yarımfəslinin dördüncü paraqrafında *"Torpaq kultu ilə bağlı inanclar"*dan bəhs olunur. Novruz inanclarının xüsusi bir qrupu torpaq kultu ilə bağlıdır. Ümumiyyətlə, torpaq bütün dünya mifologiyalarında məşhur obrazdır. Novruz inanclarında da torpaq dörd ünsürdən biri kimi, dörd ilaxır çərşənbələrdən biri ilə bağlıdır. Torpaq inanclarda özünü kult şəklində göstərir. Yəni torpaq canlı varlıq hesab edilmiş, müqəddəs sayılmış və ona tapınılmışdır. Torpaq çərşənbəsindəki torpaq ruhu torpağın sahibi olan əyədir. Bu çərşənbədə torpağa qulluq edilməsi onun sahibi olan torpaq əyəsinə hörmət, ehtiram göstərilməsi deməkdir. İnsanlar bunun müqabilində xeyir-bərəkət, bol məhsul diləyirlər.

İnanclarda torpaq kultu ilə bağlı təndir obrazı var. O da həyat, tale, bəxt, qismət mənaları ilə bağlıdır. Ağbaba bölgəsində Novruz qabağı çərşənbə axşamı qaranlıq basan kimi bir nəfər nisbətən ürəkli qadın evin təndir damına gedər, külfənin qarşısında durub deyərdi: "A Bacıxanım, Hacı Kərimin sağ olsun, mənə qardaşımdan, atamdan bir xəbər"... Guya bu zaman külfədən səs gələrmiş.

[1] Azərbaycan folkloru antologiyası. XXI cild. Qazax örnəkləri / Toplayanı M.Həkimov. Bakı: "Elm və təhsil", 2012, s. 59

[2] Azərbaycan folkloru antologiyası. VII cild. Qaraqoyunlu folkloru / Toplayıb tərtib edənlər: H.İsmayılov, Q. Süleymanov. Bakı: Səda, 2002,s. 11

Həmin qadın niyyət edib yatarmış. Əgər yaxşı yuxu görsə, onun niyyəti qəbul ediləcəkdir[1]. Burada təndir yerin, torpağın simvoludur.

Novruz inanclarında torpaq kultunun izləri özünü Kürdoğlu obrazı ilə bağlı mətnlərdə daha maraqlı məzmunda göstərir. Məsələn, Ağbaba bölgəsində Novruz bayramı hələ Novruza 30-40 gün qalmış bir sıra mərasimlərdən sonra başlanardı. Bu mərasimlər Xıdırelləz, Kürdoğlunun qayada qalması, çillə çıxarmaq, külfə (təndirin külfəsi – S.Q.) ilə danışıq (ilk niyyət), duzlu kökə və ya duzluca yemək, aş qoymaq və s. ibarət idi. Xıdırelləz boranı fevralın onundan başlanardı... Fevralın 19-da Kürdoğlu qayada qalardı. Bu əfsanəni danışan Ağbaba ağsaqqalları həmişə belə deyərdilər: "Kürdoğlu qayada qalan qalan gün yer nəfəslənir, küpədəki yağ şəhrlənir" [2].

Bu mətndən iki əsas məsələ aydın olur:

Birincisi, Kürdoğlu inancı Novruzqabağı inanc kimi Novruz mərasim kompleksinə aiddir;

İkincisi Kürdoğlu inancı torpaq kultu ilə bağlıdır. "Kürdoğlunun qayada qalan qalan gün yerin nəfəslənməsi" torpağın nəfəs almağa bağlaması, qış yuxusundan oyanması, yaxud təbiətin qışda ölüb, yazda dirilməsi mifində olduğu kimi, nəfəs alaraq dirilməsi deməkdir.

Beləliklə, torpaqla bağlı inancların nəzərdən keçirilməsi göstərir ki, burada torpaq sadəcə cansız varlıq deyildir. Yəni insanlar onu canlı hesab etmişlər. Torpaq qışda yatır, yaxud ölür. Kürdoğlu adlanan ilk nəfəslə oyanır, yaxud dirilir. Torpaq dünyanın əsasını təşkil edən dörd ünsürdən biri kimi magik gücə malikdir. İnsanlar torpağa (torpaq sahibinə) sayqı ilə yanaşarlarsa, torpaq da insanlara öz xeyir-bərəkətini verər. Bütün bunlar Azərbaycan xalqının mifik dünyagörüşündə torpağın kultlaşdırılmasının izləridir.

Üçüncü fəslin üçüncü yarımfəsli *"Novruz falları ilə bağlı inanclar"* adlanır. Novruz bayramı ilə bağlı inancların ən canlı şəkildə qorunduğu, yaşadığı sahə Novruz fallarıdır. Ümumiyyətlə, falları inanclardan kənarda təsəvvür etmək mümkün deyildir. Çünki fallar birbaşa inamlar dünyası ilə bağlıdır. Falda hər bir elementin inanclarla təsdiq olunan mənası var. Novruz falları əsasən axır çərşənbə ilə bağlıdır. Axır çərşənbə falları sayca çoxdur. Biz onların bir hissəsindən, məsələn, alma, heyva və s. ilə bağlı fallardan əvvəl gələn hissələrdə yeri gəldikcə bəhs etdik. Digər tərəfdən, bizim məqsədimiz Novruz fallarını

---

[1] Azərbaycan folkloru antologiyası. VIII cild. Ağbaba folkloru / Toplayıb tərtib edənlər: H.İsmayılov, T.Qurbanov. Bakı: Səda, 2003, 475 s.

[2] Yenə orada, s.28

təsvir etmək yox, onlarla bağlı inancları araşdırmaqdır. Buna görə də əsas fallara toxunacağıq.

Qulaq falı, qapıpusma, qulaqpusma adları altında qeyd olunan falabaxma Azərbaycanın hər bir bölgəsində geniş yayılmışdır. Bu falda Novruz bayramının mahiyyəti ilə bağlı bir çox mənalar gizlənmişdir:

Birincisi, qulaq falına yalnız ilin axır çərşənbə gecəsi getmək olar. Bunun mənası odur ki, həmin an niyyət məqamıdır. Ürəyindən keçən niyyət hasil ola bilər. İkincisi, burada əsas məna ilk sözlə bağlıdır. Qulaq falında insan çox söz eşidə bilər. Lakin eşitdiyin ilk söz əsasdır. Ondan sonra eşidilən sözlər adi sözlər, adi danışıqlardır və fal baxımından heç bir əhəmiyyət kəsb etmir.

Axır çərşənbənin məşhur fallarından biri üzüksalma adlanır. Bu falabaxma, əslində vəsfi-hal mərasimidir. "Vəsfi-hal" mərasimi mahiyyəti etibarlə su ilə falabaxmadır. Burada su kultu ilə bağlılıq var. Bu mərasimdə ərgən qızlar öz bəxt-talelərini öyrənirlər. Onlara bu xəbəri, əlaməti su verir. Bu da suyun kultlaşdırılması nəticəsində mümkün olmuşdur. Bu su isə, bildiyimiz kimi, adi su yox, çərşənbə suyudur.

Güzgü falı və yumurta ilə falabaxma da çox geniş yayılmış Novruz mərasimlərindəndir.

Ümumiyyətlə Novruz falları say və məzmunca zəngindir. Məsələn, kuzə falı, açar falı, qıfil falı, alma falı, başmaq (ayaqqabı) falı, cıdır falı, iynə falı, qovurğa falı, qovut falı, şam falı, ulduz falı və s.

Tədqiqatın "**Nəticə**"sində göstərilir ki, istənilən xalqın inancları, o cümlədən Azərbaycan xalqının Novruz ilə bağlı inancları bütöv bir sistemdir. Bizə ayrı-ayrı məsələlər, fərqli mətləblər təsiri bağışlayan inanclar vahid bir əsas ətrafında birləşərək sistem yaradır. Novruz inanclarını ümumi halda nəzərdən keçirdikdə burada da həmin inancların bağlı olduğu vahid bir əsası müşahidə etmək olur. Məlum olur ki, təzə ilin köhnə ili (yaxud təzə dünyanın köhnə dünyanı) əvəz etdiyi Novruz bayramında iki zaman üz-üzə gəlir. Bunlardan biri getməkdə olan zaman, o birisi isə gəlməkdə olan zamandır. Bunların bir-birini əvəz etməsi Novruz bayramında baş verir. Bu zaman əvəzlənməsində ən mühüm məqam ilin təhvil olunduğu zaman kəsiyidir. Həmin zaman kəsiyi ilə bağlı inanclar vardır. O inanclardan məlum olur ki, ilin təhvil olduğu məqam qeyri-adi zamandır. Bu zamanda qeyri-adi hadisələr baş verir. Həmin qeyri-adi zamanın əsas xüsusiyyəti ondan ibarətdir ki, bu, bir başlanğıc anı, qeyri-adi zaman nöqtəsidir. Bütün yeni zaman, yeni məkan və bu zaman-məkan daxilində baş verəcək hadisələr həmin zaman başlanğıcından, zaman nöqtəsindən başlanır. Bu zaman nöqtəsində baş verənlər fərqli xüsusiyyətlərə malik olur.

Novruz inancları əski təbiət kultları haqqında təsəvvürləri özündə yaşadır. "Kult" – pərəstiş, tapınma deməkdir. Novruz inanclarının öyrənilməsi göstərir ki, babalarımız od, su, bitki, torpaq kimi təbiət ünsürlərini kultlaşdırmış, yəni bu ünsürlərin qeyri-adi varlıqlar olduğuna inanmış, onları müqəddəs varlıqlar hesab etmiş və bu ünsürlərlə bağlı mərasimi hərəkətlər icra etmişlər.

Bu bayramı od-ocaqsız, gur Novruz tonqalı olmadan təsəvvür etmək mümkün deyildir. İnsanlar qaranlıq düşən kimi böyük tonqallar yandırır və bu tonqalların alovları gecənin qaranlığını işıqlandıraraq adamlarda böyük sevinc çoşqusu, şən əhval-ruhiyyə yaradır. Bu cəhətdən Novruzla bağlı inanclarda od kultunun – odu müqəddəsləşdirmənin mühüm yer tutduğunu görürük.

**Dissertasiyanın əsas müddəaları müəllifin aşağıdakı məqalələrində və elmi konfranslardakı çıxışlarında öz əksini tapmışdır:**


1. Novruz bayramı və milli-mənəvi dəyərlər // Dədə Qorqud, 2012, III (44), s.101-109

2. Novruz bayramı və milli dövlətçilik ənənələri // Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər, Bakı, 2013, (42), s. 171-193

3. Azərbaycanda Novruz ənənələri və inancları probleminin əsasları // Filologiya məsələləri, Bakı, № 7, 2013, s. 348-354

4. İlaxır çərşənbələr probelmi və onun həlli yolları // Humanitar problemlərin öyrənilməsinin aktual problemləri, Bakı, № 3, 2013, s.131-137

5. Социальное единство и обмен традициями во время праздника Новруз // Ученые записки Таврического Национального Университета им.Вернадского, том 26 (65), № 2., 2013, с. 123-129

6. Обрядовые игры праздника Новруз в Азербайджане // Материалы международной конференции «Язык. Культура, Этикет современном полиэтническом пространстве». Нальчик, 2013, с. 140-143

7. İlaxır çərşənbə ayinləri və onalrın inanc əsasları, Dil və ədəbiyyat, beynəlxalq elmi-nəzəri jurnal, 1 (89), bakı, 2014, s. 203-207

**Севиндж Ашур кызы Касымова**

## Традиции и поверья Новруза в Азербайджане

### Резюме

Диссертация состоит из введения, трёх глав, заключения и списка использованной литературы.

Введение диссертации состоит из актуальности, цели и обязательств, научных новостей, теоретико-методологических основ темы, теоретической и практической важности, апробации исследования.

В первой главе работы, под названием «Новруз как национальная традиция», в двух разделах исследуются следующие вопросы: «Праздник Новруз как национально-духовная традиция», «Праздник Новруз и традиции национальной государственности».

Предмет второй главы диссертации под названием «Обрядовые традиции, связанные с праздником Новруз» состоит из следующих вопросов: «Традиции, связанные с последними вторниками года», «Традиции социального единства и распределения», «Традиции представлений», «Традиции игрищ», «Кулинарные традиции».

Проблема третьей главы под названием «Поверья, связанные с праздником Новруз» охватывает следующие вопросы: «Неопределенная точка времени в поверьях Новруз», «Поверья, связанные с культом огня», «Поверья, связанные с культом воды», «Поверья, связанные с культом растений», «Поверья, связанные с культом земли», «Поверья, связанные с гаданиями Новруз».

В «Заключении» подводятся итоги проведенных исследовательских работ. В этом разделе обобщены выводы основные положения исследования и определены направления дальнейшего изучения темы.

**Sevinj Ashur gizi Gasimova**

**Novruz traditions and beliefs in Azerbaijan**

**Summary**

The dissertation work consists of the introduction, three parts, the conclusion and the list of the used literature.

In the introduction the actuality of the investigation is based on, the object, aim and duties of the investigation are determined, the scientific innovations, methods and sources, the practical and theoretical importance of the investigation are spoken about, the information about the structure of the investigation is given.

In the first part of the dissertation work called "Novrus as a national tradition" the following problems are investigated in two chapters: "Novruz holiday as the national-spiritual tradition" and "Novruz holiday and the national statehood traditions".

The second part of the dissertation is called "The ceremony traditions about Novruz holiday" and it consists of the following chapters: "The traditions about the pre-Tuesdays", "The traditions of the social unity and distribution", "The performance traditions", "The game traditions", "The cuisine traditions".

The third part of the dissertation called "The beliefs about Novruz holiday" and the following problems are investigated in it: "The extra-ordinary time point in Novruz beliefs", "The nature cults in Novruz beliefs", "The beliefs about the cult fire", "The beliefs about the cult water", "The beliefs about the cult plant", "The beliefs about the cult soil", "The beliefs about Novruz augury".

In the conclusion the results of the investigated work is summarized. In this part the main provisions of the investigation are carried out and the future directions of the investigated subject are shown.

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**ИНСТИТУТ ФОЛЬКЛОРА**

---

*На правах рукописи*

**СЕВИНДЖ АШУР кызы КАСЫМОВА**

# ТРАДИЦИИ И ПОВЕРЬЯ НОВРУЗА В АЗЕРБАЙДЖАНЕ

**5719.01-Фольклористика**

**А В Т О Р Е Ф Е Р А Т**

**диссертации на соискание научной степени доктора философии по филологии**

**БАКУ-2015**